# Zərəngiz Dəmirçi QAYALI-60



Hörmətli Zərəngiz xanım!

Sizi - istedadlı şairimizi yubileyiniz münasibətilə təbrik edirik.

Siz bədii yaradıcılığa erkən başlamısınız. İlk qələm təcrübələrinizi hələ tələbəlik illərində oxuculara təqdim etmisiniz. Həmin vaxtdan qələm əlinizdədir. Təbiətin gözəlliklərini tərənnümdən başlayan yaradıcılığınızda son 30 ilin hadisələri, 20 Yanvar faciəsi, Xocalı soyqırımı, 44 günlük Zəfər yürüşümüz ana xəttə çevrilmişdir. 8 kitab, 50-dən çox poema, yüzlərlə şeir və ballada, publisistik yazılar, esselər, ədəbi araşdırmalar, oçerk və məqalələr müəllifisiniz. Qələbəmizdən ruhlanaraq 2021-ci ildə "Zəfər sədası" və " İki qardaş gücü" kitablarını ərsəyə gətirmisiniz.

Bakı Dövlət Universitetinin filologiya fakültəsində təhsil almısınız. Təhsil almaqla yanaşı, istehsalatda çalışmış, həmçinin yaradıcılıqla məşğul olmusunuz. Təhsilinizi başa vurduqdan sonra, AZƏRTAC-da əmək fəaliyyətinizi davam etdirib, 27 il mədəniyyətimizin, ədəbiyyatımızın ən önəmli hadisələrini işıqlandırmış, dünyaya yaymısınız. Təhsil illərindən başlayaraq "Gənclik", "Ulduz", "Ozan dünyası", "SÖZ", "Qoşa qanad", "Azərbaycan" jurnallarında, eləcə də "Ədəbiyyat qəzeti", "Bakı", "Azərbaycan gəncləri", "Açıq söz", "Azərbaycan", "Kaspi", "525-ci qəzet" və digər qəzetlərdə, ölkəmizdə və ölkədən xaricdə internet məkanlarında, saytlarda əsərləriniz mütəmadi dərc olunub. "Haqqı sevdim", "Vəfam mənim", "Güllələnmişlər", "Qayalı", "Oğul", "Zəfər sədası" (Ankara), "İki qardaş gücü" kimi kitablarınız maraqla qarşılanıb.

"Qızıl qələm", Məhsəti, Nizami Gəncəvi, Rəsul Rza mükafatları və digər mükafatlara layiq görülmüsünüz. "Qayalı" kitabınız "2008-ci ilin qadın şairinin Qarabağ mövzusunda kitabı" nominasiyasının qalibi olub. Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə "Cavab ver" poemanız əsasında "Xocalı" tamaşası səhnələşdirilib. Təbrizdə "Şəhriyar" ədəbi məclisinə üzv seçilmiş, şeirləriniz "Ziya" diplomuna layiq görülmüşdür. Türkiyənin Əskişəhər bələdiyyəsi nəzdində fəaliyyət göstərən Əskişəhər şairlər məclisinin "Şərəf" mükafatına, Gürcüstan Mədəniyyət Mərkəzinin təşəkkürnaməsinə, Dərbənd "Gülüstan" Şairlər Birliyinin Fəxri fərmanına, yaradıcılıq təşkilatlarının, QHT-lərin, media qurumlarının, mədəniyyət ocaqlarının 160-dən çox fəxri diplom və mükafatına layiq görülmüsünüz.

Türkiyə, Rusiya, İran, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Türkman ədəbi nəşrlərində, mətbu orqanlarında mütəmadi şeirləriniz dərc olunub.

Hörmətli Zərəngiz xanım!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**